Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azad ərazilərə qayıdış sürətlənir...

## İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

**Cari ildə Azərbaycan tarixi üçün ən mühüm hadisələrdən biri işğaldan azad edilmiş ərazilərə keçmiş məcburi köçkünlərin qayıdış prosesinin sürətlənməsidir. Artıq bu il ərzində proses Zəngilan rayonu ilə yanaşı, Laçın və Füzulini də əhatə etdi. Elə bu günlərdə Füzuli şəhərinə 247 nəfərdən ibarət 70 ailə köçürülüb.**

Beləliklə, məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına hər cür imkan yaradılır. Daha da gözəlləşən və abadlaşan azad olunmuş ərazilərdə sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunur.

**Azad olunmuş ərazilərdə zəruri infrastruktur yaradılır, məşğulluq problemi həll olunur**

Doğma yurda qayıdan insanlar üçün hər cür yüksək şərait yaradılır. Eyni zamanda dövlət ən yüksək səviyyədə bu insanların istəklərini yerində dinləyir. Elə prezident İlham Əliyevin azad olunmuş ərazilərdə məskunlaşmış sakinlərlə mütəmadi görüşü bunun təsdiqidir.

Yeri gəlmişkən qeyd edək ki, Özbəkistan tərəfindən Füzuli şəhərində inşa edilən 960 şagird-yerlik məktəbin açılışı fonunda prezidentin sakinlərlə növbəti görüşü də bunun təsdiqidir. Açılışda Azərbaycan və Özbəkistan dövlət başçıları iştirak ediblər. Məlumat üçün bir daha qeyd edək ki, 3 hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, akt zalı, idman zalı, yeməkxana, kitabxana yaradılıb. Məktəbin ərazisində futbol meydançası, istirahət və keçiriləcək tədbirlər üçün yerlər, qaçış zolaqları, nəzarət buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası inşa edilib. Bu məktəb Özbəkistan prezidenti Şavkat Mirziyoyevin "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır" sözlərinin daha bir təsdiqi hesab olunur. Azərbaycan prezidenti İlham Əliyev də Özbəkistanın Füzuli rayonunda böyük məktəb inşa etmək təşəbbüsünü ölkələrimiz arasında həmrəyliyin, dostluğun, qardaşlığın təzahürü kimi qiymətləndirib. Dövlət başçısı özbək həmkarı ilə birlikdə mətbuata bəyanatla çıxışı zamanı bu xüsusda qeyd edib ki, bu Qarabağın bərpası işində xarici dövlətin ilk hədiyyəsidir və biz bu qardaşlıq, həmrəylik, dəstək jestini çox yüksək dəyərləndiririk: "Digər tərəfdən deyərdim ki, bu məktəb, əslində, bir təhsil sarayıdır... Məktəb özbək xalqının dahi oğlu Mirzə Uluqbəyin adını daşıyır və əminəm ki, bu, təkcə təhsil ocağı deyil, eləcə də bizim dost və qardaşlığımızın daha bir mərkəzi olacaq. Bir neçə gün, daha dəqiq desək, dörd gün bundan əvvəl Füzuli şəhərinin ilk sakinləri - keçmiş köçkünlər doğma yurdlarına qayıdıblar. Artıq yaxın zamanlarda - azı bir aydan sonra uşaqlar Özbəkistandan olan qardaşlarımız tərəfindən hədiyyə edilən məktəbdə oxumağa başlayacaqlar". Digər azad olunmuş ərazilərdə də məktəb, həmçinin digər infrastruktur baxımından yüksək şərait yaradılır. Bunlara paralel olaraq, azad edilmiş ərazilərdə məskunlaşmış vətəndaşların məşğulluğu çox vacib məqamlardan biridir. Qeyd edək ki, elə Böyük Qayıdış proqramı üzrə Füzuli şəhərinə köçürülən sakinlərin də məşğulluğuna dəstək işlərinə başlanıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin nümayəndələri Füzuli şəhərinə köçürülən ailələrlə ünvanlarında görüşlər keçirib. Bu xüsusda nazirliyini yaydığı məlumata əsasən, həmin ailələrin üzvlərinin məşğulluq imkanları qiymətləndirilib, onlara aktiv məşğulluq proqramları barədə məlumatlar verilib. Qiymətləndirmənin nəticəsinə uyğun olaraq qeyd edilən proqramlar çərçivəsində həmin vətəndaşların məşğulluğuna dəstək işləri aparılır. Ümumilikdə isə ilk mərhələdə Füzuli şəhərinə köçürülməsi nəzərdə tutulan 144 ailənin üzvlərinin məşğulluq imkanlarının araşdırılması məqsədi ilə ailələrin hər biri ilə ilkin əlaqələr saxlanılıb. Ümumiyyətlə, ölkədə yenə ən yüksək səviyyədə azad olunmuş ərazilərdə məskunlaşan vətəndaşlarzın məşğulluğuna xüsusi diqqət ayrılır. Həm dövlət sektorunda, həm də özəl sektorda onların işlə təminat həyata keçirilir.



**Sosial-iqtisadi müstəvidə mühüm addımlar atılır**

O da xüsusi qeyd edilməlidir ki, azad olunmuş ərazilər böyük iqtisadi potensiala malik olan bölgələr sırasında yer alır. Bu yerlərin aqrar potensialı, eyni zamanda, sənaye imkanları genişdir. Həmin ərazilər minalardan və partlamamış hərbi sursatlardan təmizlənmə işlərinə paralel olaraq, əkin dövriyyəsinə cəlb edilir. İlkin qiymətləndirmələr işğaldan azad edilmiş ərazilərdə 130 min hektara yaxın əkin sahəsi olduğunu göstərir. Eləcə də turizm, nəqliyyat və logistika baxımından bu ərazilər mühüm əhəmiyyət kəsb edir. Zəngin təbii ehtiyatlar sənaye müəssisələrinin işləməsinə, fəaliyyət göstərməsinə əlverişli imkan yaradır. Bütün bunlar qayıdış prosesinin sürətlənməsi üçün də əlverişli zəmin yaradır.

Burada onu da xatırladaq ki, ötən ilin noyabrında prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edib. Burada qeyd edilir ki, həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır. Elə bu fonda proqramın icrası məcburi köçkünlərin yurdlarına qayıtmasında mühüm əhəmiyyətə malikdir. Bu proqram 2026-cı ilə kimi görüləcək tədbirləri əhatə edir. Onun çərçivəsində görüləcək işlərin nəticəsində 2026-cı ilə kimi 34 min 500 ailənin doğma yurduna köçürülməsinə nail olunacaq. Daha bir diqqətçəkən nüans odur ki, Nazirlər Kabineti tərəfindən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə Tədbirlər Planı" təsdiqlənib. Bu plan çərçivəsində işğaldan azad edilmiş ərazilərdə 2022-2026-cı illərdə yaşıl texnologiyaların və enerji səmərəliliyi tələblərinin tətbiqi üzrə dövlət və özəl təşkilatlar tərəfindən müvafiq tədbirlərin görülməsi nəzərdə tutulur. Özəl sektor üçün də növbəti 10 ildə kifayət qədər böyük güzəştlər həyata keçirilir. Onlar bütün vergilərdən azaddırlar, kommunal xidmətlərdə 20 faizlik güzəşt var və işçilər üçün güzəştlər artıq qüvvəyə minib. Bütün bunlar azad olunmuş ərazilərə özəl investisiyanın cəlb edilməsinə imkan yaradır. Təbii ki, belə vəziyyət azad olunmuş ərazilərə qayıdışın cəlbediciliyini daha da artırır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**